*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 75-81* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.75*

***Ədəbiyyat nəzəriyyəsi***

# XX əsrin *(Sovet dövrü)* əvvəllərində Azərbaycan poeziyasında müxəmməs janrında yazılmış şeirlər

**Nailə Mustafayeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
E-mail: nailemustafayeva@yahoo.com.tr

**Annotasiya.** Azərbaycanda Sovet hakimiyyətinin ilk illərində yazılan müxəmməslər, əsasən, yeni quruluşun tərifi, əvvəlki quruluşun, geriliyin, din xadimlərinin tənqidi, yeni təhsilin, qadın azadlığının təbliği kimi mövzulara həsr edilmişdir. Dövrün tanınmış şair və yazıçılarından Məmməd Səid Ordubadi, Əli Nəzmi, Cəfər Cabbarlı, Səməd Mənsur, Əliağa Vahid və başqaları klassik Şərq şeiri janrlarında, o cümlədən müxəmməs janrında yazdıqları şeirlərdə adıçəkilən mövzulara xüsusi fikir verirdilər.
Görkəmli nasir M.S.Ordubadinin Azərbaycanda Sovet hakimiyyətinin ilk illərində yazdığı müxəmməslərdə köhnəpərəstlərin, riyakar din xadimlərinin tənqid olunması, xarici ölkələrdə, xüsusilə, İranda baş verən hadisələrin təsviri, beynəlxalq imperalizmin istismarçı siyasətinin ifşası, yeni sovet quruluşunun üstünlüklərinin təbliği əsas yer tutur. Ədib 1925-ci ildə yazdığı “Şeyxin bir moizəsinə ithaf” adlı yeddibəndlik müxəmməsində əmin olduğunu bildirir ki, din alimlərinin tamamilə hörmətdən düşməsinə, məscidlərin məktəblərə çevrilməsinə az qalmışdır.
Görkəmli dramaturq Cəfər Cabbarlı həmin dövrdə yazdığı şeirlərdə, o cümlədən satirik müxəmməslərdə onu narahat edən ictimai məsələlərdən bəhs edir, öz mənafeyini güdən ziyalıları, riyakar mollaları, yeni təhsilə, qadın azadlığına qarşı çıxan köhnəpərəstləri pisləyir, yoxsul təbəqənin halına acıdığını bildirirdi. Onun müxəmməslərində Sabirdə olduğu kimi, bəzi forma sərbəstliklərinin olduğunu görürük. Şairin “Əl götür” şeirinin ilk dörd bəndi müxəmməsdir, beş misradan ibarətdir, son üç bəndi isə müsəddəsdir, altı misradan ibarətdir.
Əliağa Vahidin həmin dövrdə yazdığı bir sıra müxəmməslərində Cənubi Azərbaycanda hökm sürən dini fanatizm, cəhalət, mollaların hər yerdə hökmran mövqedə olması, şarlatan həkimlər, digər ictimai bəlalar pislənməkdədir.
Dövrün şairlərinin satirik mövzuda yazdıqları şeirlərin hamısında Mirzə Ələkbər Sabirin satirik üslubunun təsirini görürük.
**Açar sözlər:** müxəmməs, şeir, satira, Sabir, qadın azadlığı

**Məqalə tarixçəsi:** göndərilib – 07.03.2024; qəbul edilib – 19.03.2024

# The poems written in the genre of mukhammas in Azerbaijani poetry at the beginning of the 20th century *(the Soviet period)*

**Naila Mustafayeva**
Doctor of Philosophy in Philology
Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS
E-mail: nailemustafayeva@yahoo.com.tr

**Abstract.** The mukhammases, written in the first years of Soviet power in Azerbaijan, were mainly devoted to the praise of the new system, criticism of the old system, ignorance, religious leaders, the promotion of a new education, women's freedom. Famous poets and writers of that time Mammad Said Ordubadi, Ali Nazmi, Jafar Jabbarli, Samad Mansur, Aliaga Vahid in their poems written in the genres of classical oriental poetry, including in the genre of mukhammas, paid special attention to these topics.

The famous prose writer M.S.Ordubadi in his mukhammas written in the first years of the Soviet regime in Azerbaijan criticized the supporters of the old order, duplicitous religious figures, described the events taking place in foreign countries, especially in Iran scourged the policy of international imperialism, promoted the superiority of the new system. In his mukhammas, entitled “Dedication to the Sheikh’s Sermon,” consisting of seven stanzas, he expressed his conviction that soon no one will listen to religious figures, mosques will turn into schools.

The outstanding playwright Jafar Jabbarli, in his mukhammas written in those years, spoke about social problems that troubled him, criticized the supporters of the old order, educated people who think only of their own benefit, duplicitous mullahs who oppose a new type of education, women's freedom, expressed his solidarity with representatives of the poor. Like Sabir, in his mukhammas there are some inconsistencies with the formal canons of mukhammas. The first four stanzas of the poem called “Hands Off” are mukhammas, consists of five verses and the next three stanzas are musaddas and consists of 6 verses.

In his mukhammases Aliaga Vahid criticizes religious fanaticism, ignorance, dominant position of mullahs, quack doctors, other social woes in South Azerbaijan,.

All the satirical mukhammas of this time were written under the influence of the works of Mirza Alakbar Sabir.

**Keywords:** mukhammas, poem, satire, Sabir, woman freedom

**Article history:** received – 07.03.2024; accepted − 19.03.2024

## Giriş / *Introduction*

Ərəb mənşəli “şərh” sözü açıqlamaq, aydınlaşdırmaq, izah etmək, bəyan etmək, kəşf etmək mənalarında işlənir. Ədəbiyyatşünaslıq termini kimi isə şərh yazılı və şifahi mətndəki mənanı, müəllif fikrini, əsərin izaha möhtac hissələrini, çətin anlaşılan söz və ifadələrin mənasını izah edən, aydınlaşdıran deməkdir.

Tənqidin klassik janrlarına daxil olan şərh orta əsrlərdə bir əsəri geniş oxucu kütləsi üçün aydınlaşdırmaq məqsədilə yazılmışdır. Lakin şərhçilər ayrı-ayrı əsərlərin misra-misra, beyt-beyt izahını vermək və burada ifadə olunan fikir və mənaların açılmasına çalışmaqla bərabər, eyni zamanda əsər, müəllif və ədəbi proses haqqında fikirlərini də əlavə etmiş, ədəbiyyatşünaslığa dair məsələlər haqqında düşüncələrini bölüşmüş, həmçinin başqa şərhçilərlə mübahisələrə də yer vermişlər.

## Əsas hissə / *Main Part*

Görkəmli nasir Məmməd Səid Ordubadi (1872-1950) klassik üslubda bir sıra şeirlərin, o cümlədən müxəmməslərin müəllifidir. Tədqiqatçı Fəridə Vəzirovanın göstərdiyinə görə, ədib, əsasən, XX əsrin əvvəllərində sürgündə olduğu zaman və sovet hakimiyyətinin ilk onilliyində şeir yaradıcılığı ilə məşğul olmuşdur [6, s.53]. Şeirlərindən onun mollanəsrəddinçi, Sabir ədəbi məktəbinin ardıcılı olduğunu görürük. Məmməd Səidin müxəmməsləri keçmişin qalığı olan köhnəpərəstlərin, riyakar din xadimlərinin tənqidinə, xarici ölkələrdə, xüsusilə də, İranda baş verən hadisələrə, beynəlxalq imperializmin istismarçı siyasətinin ifşasına, yeni sovet quruluşunun üstünlüklərinin təbliğinə həsr edilmişdir. Ədib 1925-ci ildə yazdığı "Şeyxin bir moizəsinə ithaf" adlı yeddibəndlik müxəmməsində əmin olduğunu bildirir ki, din xadimlərinin tamamilə hörmətdən düşməsinə, məscidlərin məktəblərə çevrilməsinə az qalmışdır:

*Millət daha heç görməyəcək şeyxdən asar,*
*Gəlməz daha insanlığa bu surəti-idbar,*
*Məscid verilər məktəbə, qalmaz daha dərbar.*
[3, s.44]

Ədibin 1923-cü ildə yazdığı beşbəndlik "Əvvəl və indi" adlı şeirində əvvəllər xalq avam olduğuna görə hörmət-izzət, var-dövlət sahibi olan mollaların indi, sovet dövründə hörmətlərini itirdiklərindən, yoxsullaşdıqlarından bəhs olunur. Yazıçının "Ramazan, novruz və məhərrəm", "Ay molla", "Məhərrəmdə atanın oğula vəsiyyəti", "Mollanın fırıldaqları", "Şiələr", "Ay tutulanda", "Şeyx əmi", "Ramazan qurtaranda" adlı müxəmməsləri eyni mövzuya həsr edilib. Məmməd Səidin 1928-ci ildə yazdığı beşbəndlik "İran Astarası və Azərbaycan Astarası" adlı müxəmməsində "bir tərəfdə" sözü təkrir, leksik anafora kimi tez-tez işlədilir. Müəllif bu üsulla İranın və Sovet Azərbaycanının ərazisində yerləşən iki Astaranı müqayisə edir, sosialist quruluşunun üstünlüklərini göstərir:

*Bir tərəfdə qız-qadın yetməkdə azadiyyətə,*
*Bir tərəfdə Şahnisə pabəstə vədi-cənnətə,*
*Bir tərəfdə səhnələr isbat ikən hürriyyətə,*
*Bir tərəfdə matəmi-şahi-şəhidan, Astara,*
*Gündə möcüz, gündə bir təqlid, bühran Astara.*
[3, s.52]

Qeyd edək ki, 1920-ci il 28 aprel çevrilişindən sonra qəlbində milli müstəqillik ideyasına sadiq qalan bir sıra şairlərimiz mətbuatda çap etdirdikləri bəzi şeirlərində üstüörtülü şəkildə olsa da, xalqın azadlıq, suverenlik ideyalarının puç olmasından kədərləndiklərini ifadə etdilər. Şuşa ədəbi mühitinin yetirməsi, şeirlər toplusu və "Gülşəni-maarif" təzkirəsinin müəllifi Nəcəfqulu bəy Şeydanın (1858-1939) əsərlərində isə sovet quruluşunun açıq tənqidini görürük. Şairə görə, yeni rejim, əslində, çar Rusiyasının başqa bir formasıdır. Lakin onun əsərləri sağlığında işıq üzü görməmiş, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna verilmiş, yalnız 2006-cı ildə "Nurlan" nəşriyyatında nəşr edilmişdir. Şairin şeirlər toplusuna daxil edilmiş altı müxəmməsindən dördü lirik-aşiqanə, ikisi ictimai mövzuya həsr olunub. Onun 1915-ci ildə yazdığı "İyidir" rədifli yeddibəndlik müxəmməsində çar Rusiyasında məhkum vəziyyətdə yaşayan əhalinin halından xəbərsiz olan imkanlı təbəqə nümayəndələri pislənir. Qafil adlandırdığı bu cür insanlara üz tutan müəllif deyir ki, eyş-işrət içində yaşamağınız hələ ölkədəki vəziyyətin yaxşı olduğuna dəlalət etmir. Yoxsul, səfil insanları düşünmək, onlara yardım etmək lazımdır. Şair insanların hüquqlarının müdafiəsi məsələsinə toxunur, "Etməsə hifzihüquq şəxs taparmı iqbal" deyir. Nəcəfqulu bəy xalqının taleyinə laqeyd olub, öz mənfəətini düşünənləri sərt şəkildə millət xaini adlandırır:

*Xaini-millət olub satdılar gözəl vətəni,*
*Qarət etdilər təmam əhlini, əzzəl vətəni,*
*Qoydular xaki-məzəllətdə o əfsəl vətəni.*
[4, s.88]

N.Şeyda 1923-cü ildə yazdığı altıbəndlik "İstər" rədifli müxəmməsində gündən-günə insanların xasiyyəti, əxlaqının pozulduğundan, millətin adət-ənənələrini itirdiyindən şikayət edir:

*Günü-gündən xəsaili-müasirlər rəzil oldu,*
*Əsasi-adəti-millət pozuldu, bidəlil oldu,*
*Miləl içrə cahanda cümləsi xarü zəlil oldu.*
[4, s.83]

Şeirin sonunda şair göstərir ki, xalqı cəhalət zülmətindən elm, mədəniyyət, maarif, təhsil xilas edə bilər.

Dramaturgiyamızın görkəmli nümayəndəsi Cəfər Cabbarlı (1899-1934) ədəbi-bədii yaradıcılığa şeirlə başlamış, ilk şeirlərini 1915-1916-cı illərdə "Babayi-Əmir" jurnalında çap etdirmişdir. Sənətkar lirik və satirik şeirlərini əruz və heca vəznlərində yazmışdır. Cabbarlı şeirlərini, əsasən, 1915-1916-ci illərdə və Sovet hakimiyyətinin ilk illərində yazıbdır. Satirik şeirlərinin sayı daha çoxdur. Akademik Məmməd Arif onun ilk poetik əsərlərinin nəşri barədə yazır: "1916-1919-cu illərdə "Babayi-Əmir" jurnalında Cabbarlının 40-dan artıq satirik şeiri çap edilmişdir. Jurnalın elə nömrəsi var ki, orada "Qəyur əyyar", "Şəbrəng", "Şəbrəng əyyar" və s. imzalarla Cabbarlının iki-üç şeiri çap edilmişdir" [1, s.17]. Görkəmli yazıçının xüsusilə satirik şeirləri onu narahat edən ictimai məsələlərdən bəhs edir, xalqın ehtiyaclarına qarşı laqeyd olan varlı təbəqə nümayəndələrini, xalqın mənafeyinə uyğun işlər görməyən xeyriyyə cəmiyyətlərini, öz mənafeyini güdən ziyalıları, riyakar mollaları, yeni təhsilə, qadın azadlığına qarşı çıxan köhnəpərəstləri pisləyir, yoxsul, imkansız təbəqənin halına acıdığını ifadə edirdi. Qeyd edək ki, Cabbarlının satirik şeirləri Sabirin təsiri ilə, əruz vəznində, klassik poeziyanın bir sıra janrlarında yazılıbdır. Bu əsərlərin içində müxəmməslər sayca çox olmasa da, müəyyən mövqeyə malikdir. Onun bütün şeirlərində, o cümlədən müxəmməslərində Sabirin satirik üslubunun, fikri ifadə etmək tərzinin təsirini görürük. Cabbarlının müxəmməslərinin çoxu Sabirinkilər kimi, tərci beytlərlə başlanır, beş misradan ibarət hər bəndin sonunda tərci beyti gəlir. O da Sabir kimi, şeirlərində bəzi forma sərbəstliyinə yol vermişdir. Məsələn, "Dəng olduq" şeirinin ilk üç bəndi müxəmməsdir, beş misradan ibarətdir, lakin son iki bəndi altı misradan ibarətdir, müsəddəsdir. "Əl götür" şeirinin ilk dörd bəndi müxəmməs, son üç bəndi müsəddədir. Sabirin təsiri ilə XX əsr sənətkarları arasında yol verilən bu forma sərbəstliyi fikrin daha dəqiq, emosional çatdırılmasına xidmət edirdi. Bir formal cəhət də diqqəti cəlb edir: əgər mollanəsrəddinçi şairlər və ya bu jurnala, redaktoruna hörməti olan şairlər əsərlərində "A molla!" müraciət formasından istifadə edirdilərsə, şeirlərini "Babayi-Əmir"də nəşr etdirən şairlərin bir çoxu əsərlərini "Ay Baba" sözləri ilə başlayırdı. Beşbəndlik "Olmağa" adlı müxəmməsində müəllif şairləri döyən, onlara heç nə satmayan, məktəbləri görməyə gözü olmayan, müəllimləri qorxudan, mədəniyyətdən uzaqlaşıb dağda çoban olmağa üstünlük verən nadanları pisləyir:

*Bir də bu məktəblərin hamısını yıxmağa,*
*Həm də müəllimlərin burnunu bərk sıxmağa,*
*Qət eləyib cümləsi şəhri qoyub çıxmağa,*
*Dağlı kimi dırmaşıb dağda çoban olmağa,*
*Bakılılar and içib şiri-jəyan olmağa.*
[2, s.92]

Sabirin kinayəli tənqid və ifşa tərzinin təsirini onun bütün ardıcıllarının satirik şeirlərində görmək olar. Cabbarlının "Böhtan yazıbdır", "Dəng olduq" kimi müxəmməslərindəki kinayəli üslub Sabirdən gəlir, onu Əli Nəzmi, Əliqulu Qəmküsarda da görmək olar. Şair Babaya, yəni "Babayi-Əmir" jurnalına müraciət edərək dərc etdiyi yazıların təhlükəli mövzulara aid olduğunu deyir, bu işdən əl götürməyi məsləhət görür. Müəllif sanki jurnalın yazılarının çox pis nəticələnəcəyindən danışır, lakin əslində, bu da tənqid və ifşa üsuludur. O, satirik yazıların təsirini, onların müəlliflərini gözləyən təhlükələri sadalamaqla əsl məqsədinə nail olur, mənfi tipləri ifşa edir. "Böhtan yazıbsan" şeirində mollaların qarınquluğu tənqid hədəfinə çevrilib:

*Dərya ola çernil, yazasan, min dənə peyman,*
*Ölsən də ki, molla yeyəcək hər gecə ehsan,*
*Əkşi, sənə nə? Molla yazıq ölsün acından?*
[2, s.96]

"Dəng olduq" müxəmməsində jurnalda satirik şeirlərin nəşr edilməsi nəticəsində bəd əməllərin qarşısının alınmasından danışılır. Lakin bu əhvalatı o adam nəql edir ki, mənfi tiplərin tərəfindədir, onların pislənməsini istəmir. Sabir sa-

tirik üslubunda mənfi tip öz dili ilə eyiblərini ifşa etdiyi kimi, burada onu müdafiə edən şəxs də tənqid hədəfinə çevrilir:

*Dəllək dükanını etdi bir kəs qumar yuvası,*
*Yaxşı mədaxil aldı, yüksəldi iştahası,*
*Yazdın onu qəzetdə, dağıldı hər əsası,*
*Çox keçmədi ki, oldu bərbad sənin əlindən,*
*Bir gün olurmu millət azad sənin əlindən?*
[2, s.113]

Şeirdə satirik əsərin, satirik jurnalın bəzi mənfi halları aradan götürə bilmək qabiliyyətinin, gücünün təbliğ olunduğunu da görürük.

"Kantorçularımız" adlı dördbəndlik müxəmməsdə müsəlmanlara iş verməyən iş adamları pislənməkdədir.

Cəfər Cabbarlının lirik və satirik şeirlərini məqsəd, fikir birliyi birləşdirir. Akademik Məmməd Arif bu barədə yazır: "Cabbarlının ilk satirik şeirləri ilə ("Qızıma", "Nə edim", "Üstünə", "Görməmişəm, eşitmişəm" və sair) ciddi lirik şeirləri ("Qürub çağı bir yetim", "Boranlı qış gecəsi") arasında bir ideya birliyi vardır. Bu şeirlərdə ictimai haqsızlıqlara, ədalətsizliyə qarşı etiraz müxtəlif şəkillərdə, gah satira, gah ciddi tənqid, gah da lirik-emosional bir tərzdə ifadə edilmişdir" [1, s.19-20].

C.Cabbarlının sovet hakimiyyətinin ilk illərində yazdığı "Məhkum Şərqə" adlı dördbəndlik müxəmməsi siyasi lirikanın gözəl nümunəsidir. Müəllif Qərb ölkələri tərəfindən torpaqları işğal, sərvətləri istismar ediən Şərqin övladlarına müraciət edərək deyir ki, aciz olma, hərəkətə gəl, mübarizə apar, ya azadlığa çıx, ya da məhv ol:

*Topla nə gücün varsa, giriş qəti cidalə!*
*Ya haqqını al, ya əbədi öl, laməhalə.* [2, s.72]

XX əsr poeziyamızda klassik irsin, Füzuli ənənələrinin davamçısı, qəzəl ustadı kimi tanınan Əliağa Vahid (1895-1965) lirik şair olsa da, onun yaradıcılığında ictimai məzmunlu şeirlər mühüm yer tutur. O, istər əsrin əvvəllərində, istərsə də sovet dövründə yazdığı əsərlərində ictimai həyatda baş verən hadisələrə münasibət bildirmiş, haqsızlıq və ədalətsizlikləri, nöqsanları tənqid etmiş, II Dünya müharibəsi illərində faşizmi ifşa edən şeirlər yazmışdır. Şair satirik şeirlərində, o cümlədən müxəmməslərində Sabirin satirik üslubunun davamçısı kimi çıxış edir. Vahidin satirik şeirləri içində müxəmməslərin sayının çox olduğu (yüzdən artıq) diqqəti cəlb edir. Yazdığı müxəmməslərinin sayının çoxluğuna görə onu Əli Nəzmi ilə müqayisə etmək olar.

Ə.Vahidin 1915-ci ildə yazdığı "Mollanın" müxəmməsində xalqı cəhalətdə saxlamaq istəyən din xadimləri, "Ar qıl" müxəmməsində oğlunu məktəbdən, sənət sahibi olmaqdan çəkindirib qoçuluğa sövq edən atalar pislənməkdədir. Cəfər Cabbarlıya həsr etdiyi "Görürəm" rədifli müxəmməsində müəllif xalqının taleyinə laqeyd olan eyş-işrət düşkünü ziyalıları tənqid edir:

*Sevirəm mən bunu, əlhəqq, bu imiş ünsiyyət,*
*Qoyasan adını dünyadə fəqət intiligent,*
*Lakin heç bilmiyəsən kim, nə imiş milliyyət,*
*Olasan sübhü məsa maili-eyşü işrət,*
*Mey içib söyləyəsən, ruhə qəzadır, görürəm.*
[5, s.39]

Sovet dövründə yazdığı şeirlərində şair keçmişin qalıqlarını, xüsusilə dini fanatizmi, dini ayinlərin icrasını tənqid edir, yeni sosialist quruluşunun üstünlüklərindən danışır. O, xüsusilə, din xadimlərinin əməllərinin ifşasına daha çox fikir vermişdir. "Köhnə müsəlmanlar", "Şeyxə bir imdad", "Şeyxə bir hədiyyə", "Dövran bizimdir", "Acı gülüşlər", "Molla Zaman" və s. bir sıra müxəmməslərində Vahid xalqın inamından sui-istifadə edərək, dini mərasimlərdə ciblərini dolduran, qarınqululuq edən mollaları pisləyir. Onun ayrı-ayrı şeirlərində Fazil Dərbəndi, Dəxil, Qumri kimi mərsiyəxan şairlər tənqid hədəfinə çevrilir. Şair yeni quruluşun üstünlüklərindən, köhnəliyin, dini fanatizmin geri çəkilməsindən bəhs etdiyi şeirlərində "işçi", "seçki", "selsovet", "kolxoz" kimi XX əsrin 20-30-cu illərində işlənən sözlərdən tez-tez istifadə edir. Onun 1921-ci ildə yazdığı "Qoçu" adlı beşbəndlik müxəmməsində sovet hakimiyyəti orqanlarından qorxub əvvəlki cinayətlərini edə bilməyən, insanları döyməkdən, incitməkdən, öldürməkdən qorxub evdən çıxmayan qoçu öz dərdini izhar edir. Vaxtilə bütün məhəllənin ürəyinə qorxu salan, söyüb döyən qoçudan indi

arvadı da qorxmur. Hər bəndin sonunda nəqarət kimi təkrar edilən

*Öldürə bilmirəm, döyə bilmirəm,*
*Heç kəsi incidib söyə bilmirəm.* [5, s.49]

– tərci beyti bu qoçunun cəmiyyətdəki vəziyyətinin nə qədər dəyişdiyinə diqqəti cəlb edir. Şeir, əslində, ölkədə sabitlik, əmin-amanlıq yaradan yeni hakimiyyəti tərif etməkdədir.

Ə.Vahidin Füzulinin doqquzbəndlik “Sübh salıb mah rüxündən niqab” qəzəlinə yazdığı doqquzbəndlik “Təxmis-məzhəkə” adlı müxəmməsi imkanlı, yaşlı bir qadın düşkününün ifşasına həsr edilib. Müəllif Füzulinin lirik-aşiqanə qəzəlinin beytlərinə hər bənddə elə ustalıqla misralar əlavə etmişdir ki, bu, şeirin satirik ruhuna xələl gətirməmişdir.

Səkkizinci bənddə aşiqin halına məşuqədən rəhm istəyən Füzuli beytinə edilən əlavə misralarda Vahid öz qəhrəmanının əsl simasını açıb göstərir: O, gözələ üz tutub: qocayamsa da, var-dövlətim var, ona görə cəsarət edib arxanca düşmüşəm, – deyir:

*Baxma bu kaftar əməlin yalinə,*
*Düşsə sənin tək xanımın dalinə,*
*Gəl evə, bax dövlətinə, malinə,*
*“Rəhm qıl üftadələrin halinə,*
*Hiç gərəkməzmi sənə bir səvab”.* [5, s.74]

Şairin “Sür dərəyə”, “Doktor”udur bu” və s. müxəmməslərində Cənubi Azərbaycandakı cəhalət, mollaların hər yanda hökmran mövqedə olması, şarlatan həkimlər, digər ictimai bəlalar pislənməkdədir.

“Dədə, vay” müxəmməsində Vahid Şuşadakı Sabir adına klubun bərbad vəziyyətini, işçilərin, rayon rəhbərliyinin öz vəzifələrinə laqeyd yanaşmasını pisləyərkən, maraqlı bir poetik üsuldan istifadə edir. Şeirin əvvəlində o deyir ki, hər gecə Mirzə Ələkbər Sabir yuxuma girib tənəli sözlərlə həmin klubun vəziyyətindən şikayət edir. Bunun cavabında müəllif vəziyyəti olduğu kimi ustad sənətkara danışmaqdan, gücsüzlüyünü etiraf etməkdən başqa, bir yol tapmır. Çünki bu vəziyyəti düzəltməyə onun gücü çatmır:

*Deyirəm, ey böyük ustad, məni salma yadına!*
*Şuşa şəhrində deyirlər ki, klub var adına,*
*Belə məlum ki, o layiq deyil istedadına.*
[5, s.158]

Əliağa Vahid II Dünya müharibəsi illərində yazdığı “Heç yox imiş”, “Dədəm, vay”, “Qanmadı Hitler”, “Natamam oldu”, “Quduz Hitlerə” və s. müxəmməslərində Hitlerin, faşist Almaniyasının qaniçən, istismarçı siyasəti ifşa edilir.

## Nəticə / *Conclusion*

XX əsrin (Sovet dövrü) əvvəllərində klassik janrlarda yazılan şeirlərin sayı azalsa da, Əli Nəzmi, Cəfər Cabbarlı, Bayraməli Abbaszadə Hammal, Məmməd Səid Ordubadi, Mikayıl Müşfiq, Əliağa Vahid, Nəcəfqulu bəy Şeyda, Məhəmməd ağa Müctəhidzadə, İbrahim Tahir Musayev və başqa şairlərin müxəmməs janrında əsərlər yazdığını görürük. Əsrin ikinci yarısında fəaliyyət göstərən Həkim Qəni, Mail Əliyev, Şahin Fazil, Arif Buzovnalı, Ənvər Nəzərli, Yusif Qulammirzə oğlu, Soltan Hüseynqulu oğlu və başqalarının müxəmməsləri, təxmisləri diqqəti cəlb edir. Həmin dövrdə mədhiyyə, müləmma, mərsiyə məzmunlu, qəzələ nəzirə olaraq yazılan müxəmməslər meydana çıxmış, müxəmməs janrında yazılan şeirlərin mövzu dairəsi xeyli genişlənmişdi.

Azərbaycan ədəbiyyatının yeddi əsrdən artıq inkişafı boyu həyatın müxtəlif tərəflərini realistcəsinə əks etdirən müxəmməs bu gün də qələm sahibləri tərəfindən uğurla işlənməkdədir.

## Ədəbiyyat / *References*


1. Arif, Məmməd. Seçilmiş əsərləri. Üç cilddə, I cild. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1968.
2. Cabbarlı, Cəfər. Əsərləri. Dörd cilddə, I cild. – Bakı: Şərq-Qərb, 2005.

3. Ordubadi, M.S. Seçilmiş şeirlər və hekayələr. – Bakı: Azərnəşr, 1951.
4. Şeyda, Nəcəfqulu bəy. Şeirlər. – Bakı: Nurlan, 2005.
5. Vahid, Əliağa. Seçilmiş əsərləri. İki cilddə, I cild. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1975.
6. Vəzirova, Fəridə. Məmməd Səid Ordubadi. – Bakı: Gənclik, 1970.


## Стихи в жанре мухаммас в азербайджанской поэзии начала XX в. *(советский период)*

**Наиля Мустафаева**
Доктор философии по филологии
Институт рукописей имени Мохаммеда Физули НАНА
E-mail: nailemustafayeva@yahoo.com.tr

**Резюме.** Мухаммасы, написанные в первые годы советской власти в Азербайджане были посвящены в основном восхвалению нового строя, критике старого строя, невежества религиозных деятелей, пропаганде нового образования, свободе женщин. Известные поэты и писатели того времени – Мамед Саид Ордубади, Али Назми, Джафар Джаббарлы, Самед Мансур, Алиага Вахид в своих стихах, написанных в жанрах классической восточной поэзии, в том числе в жанре мухаммас, особое внимание уделяли именно этим темам.

Известный прозаик М.С.Ордубади в мухаммасах, написанных им в первые годы советской власти в Азербайджане, критиковал сторонников старых порядков, двуличных религиозных деятелей, описывал события, происходящие в зарубежных странах, особенно в Иране, бичевал политику международного империализма, пропагандировал превосходство нового строя. Он в своем мухаммасе под названием «Посвящение одной проповеди шейха», состоящем из семи строф, выражает свое убеждение в том, что в скором времени никто не будет слушать религиозных деятелей, мечети превратятся в школы.

Выдающийся драматург Джафар Джаббарлы в своих мухаммасах, написанных в те годы, говорил о волнующих его проблемах, критиковал сторонников старых порядков, некоторых интеллектуалов, которые думают только о своей выгоде, двуличных мулл, выступающих против нового типа образования, свободы женщин, выражал свою солидарность с представителями бедных слоев населения. Как и у Сабира, в его мухаммасах можно увидеть некоторые несоответствия с формальными канонами мухаммаса. В его мухаммасе под названием «Руки прочь» первые четыре строфы являются мухаммасом и состоят из пяти строк, а последующие три строфы – мусаддас, состоит из шести строк.

В своих мухаммасах тех лет Алиага Вахид критикует религиозный фанатизм, невежество, царящее в Южном Азербайджане, господствующее положение мулл, врачей-шарлатанов, другие общественные беды.

Все сатирические мухаммасы этого времени были написаны под воздействием произведений Мирзы Алекбера Сабира.

**Ключевые слова:** мухаммас, стихи, сатира, Сабир, свобода женщин